**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**SƏRƏNCAMI**

**№** 328            **"29" dekabr 2022-ci il**

**Binəqədi rayonu üzrə 2023-cü il üçün "Ərazi Məşğulluq Proqramı"nın təsdiq olunması barədə**

Əmək bazarının mövcud vəziyyəti, əmək bazarında iştirak edəcək işçi qüvvəsinin tərkibi və onlardan istifadə olunması, peşə hazırlığı kurslarının təşkili, Kvota ilə işədüzəltmə, işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin əsas istiqamətləri və nəzərdə tutulmuş tədbirləri nəzərə alaraq "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8 və 4.8.2-ci bəndlərinə əsaslanaraq

**Qərara alıram:**

1. 2023-cü il üçün Binəqədi rayonu üzrə "Ərazi Məşğulluq Proqramı" təsdiq edilsin.
2. Məşğulluğa Kömək Göstərən Yerli Əlaqələndirmə Komitəsinə tapşırılsın ki:

- Rayon ərazisində fəaliyyət göstərən işəgötürənlərin iştirakı ilə mütəmadi olaraq əmək yarmarkalarının keçirilməsini təşkil etsin;
- Kvota iş yerləri tətbiq edilmiş müəssisələrdə kvota iş yerlərinə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən işaxtaranların işlə təmin olunmasını nəzarətdə saxlasın;
- İxtisası və peşəsi olmayan işaxtaran gənclərin peşə hazırlığı kurslarına cəlb olunmasını təmin etsin;
- Aztəminatlı ailələr Özünüməşğulluq Proqramı layihəsinə cəlb edilsin;

3. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini, Məşğulluğa Kömək Göstərən Yerli Əlaqələndirmə Komitəsinin sədri Hacıbaba Babayevə həvalə edilsin.

4. Sərəncamın surətlərinin aidiyyəti üzrə çatdırılması Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə həvalə edilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN